# Kənd təsərrüfatı bolluğa təminat yaradır

İsmayıllılar tarixən iqtisadiyyatın digər sahələrilə yanaşı, kənd təsərrüfatı ilə də məşğul olmuş, ailə büdcələrinin bu yolla tənzimlənməsinə üstünlük vermişlər. Onlar bu gün də ənənəyə sadiqdirlər. Ölkədə qeyri-neft sektorunun inkişafı ilə iqtisadiyyatın daha da möhkəmləndirilməsi istiqamətində qarşıya qoyulan vəzifələr bu gün İsmayıllı rayonunda da lazımi səviyyədə həyata keçirilir. **Rayon kənd təsərrüfatı idarəsinin rəisi Həsən Həsənovun** bölgə müxbirimizlə söhbətində bu məsələlərə konkret faktlarla aydınlıq gətirilir.

Aqrar sahənin inkişafına həmişə dövlətimiz tərəfindən böyük diqqət və qayğı göstərilmiş, ardıcıl Dövlət proqramları qəbul olunmuş, istehsalçılara dövlət büdcəsinin vəsaiti hesabına yardımlar, subsidiyalar, güzəştli qiymətlərlə gübrələr, lizinq yolu ilə texnikalar, damazlıq heyvanlar, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə aşağı faizə kreditlər verilmiş, əkinçiliklə məşğul olan hüquqi və fiziki şəxslər torpaq vergisi istisna olmaqla qalan bütün vergilərdən azad olunmuşlar. Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2014-cü il tarixli "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən rayonlar üzrə aqrar siyasətin həyata keçirilməsinin təmin edilməsi, kənd təsərrüfatına dövlət dəstəyi tədbirlərinin təşkili, aqrar sahə ilə bağlı problemlərin həllində müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının yerli struktur bölmələri ilə səmərəli əməkdaşlığın qurulması məqsədi ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələrinin yaradılması aqrar sahədə həyata keçirilən məqsədyönlü tədbirlərdəndir. Artıq rayonumuzda Kənd Təsərrüfatı İdarəsi formalaşmağa başlamış, mütəxəssislər işə qəbul edilmiş, idarənin inzibati binası tikilərək istifadəyə hazır vəziyyətə gətirilmişdir.



2016-cı ilin birinci yarısında rayonumuzda da sahələrin inkişafı ilə bağlı yeni layihələr həyata keçirilmiş, yüksək məhsuldarlıq göstəriciləri əldə olunmuşdur.

Birinci altı ayın yekunlarına görə rayon üzrə 51448 baş iribuynuzlu, 178796 baş xırdabuynuzlu, 257 baş donuz mövcud olmuşdur. Bütün sahələr üzrə baş sayları ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. Qeyd olunan müddətdə 2643 ton ət, 17538 ton süd, 7 milyon 377 min ədəd yumurta, 397 ton yun istehsal olunmuşdur.

2016-cı ilin məhsulu üçün cəmi 33252 hektar əkin aparılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 450 hektar çoxdur. Rayonumuzun fermerləri ölkə rəhbərinin aqrar sahənin inkişafı ilə bağlı göstərdiyi diqqət və qayğıya əməli işləri ilə cavab vermiş və yazlıq əkinlərin optimal müddətdə aparılmasına nail olmuşlar. Əkinlərə yüksək aqrotexniki qaydalara uyğun xidmət göstərilmişdir. Gübrələrdən, ziyanvericilərə qarşı dərman preparatlarından qaydalara uyğun istifadə olunmuşdur.

Taxılçılıq rayonumuzun kənd təsərrüfatında əsas yer tutur. Təkcə bu mövsümdə rayon üzrə 101 min tona yaxın taxıl istehsal edilmişdir. Hər hektardan isə orta hesabla 34 sentnerə yaxın məhsul götürülmüşdür.

Rayonumuzda tütün əkini və barama yetişdirilməsi ilə bağlı da müvafiq tədbirlər həyata keçirilmişdir. Rayonun Qurbanəfəndi, Topçu, Qalınçaq, Təzəkənd kəndlərində 5 hektar tütün əkini aparılmışdır. Kümçülərimiz bir tona yaxın barama istehsal etmişlər. İstehsal olunmuş barama hesabına 30 ailə bir ay ərzində 6400 manat vəsait qazanmışdır. Gələcəkdə barama istehsalını və əhalinin məşğulluq səviyyəsini artırmaq üçün inzibati ərazi dairələrində 2 min ədəd tut tingi əkilmişdir. Eləcə də yol kənarlarında və bələdiyyələrin ərazisində yaşıllaşdırma məqsədilə 29 min ədəd ağac əkilmişdir. Bu il ilk dəfə olaraq sənaye üsulu ilə rayonumuzun Talıstan, Culyan və Kürdmaşı kəndlərində sahibkarlar tərəfindən 165 hektar sahədə kartof əkilmiş, Almaniya Respublikasından yüksək reproduksiyalı toxum gətirilmişdir. Rayonumuzda kartof istehsalının yüksələn tempini nəzərə alaraq kartof emalı zavodunun tikintisi davam etdirilir. Müəssisədə kartofla yanaşı, digər meyvə-tərəvəz məhsullarının da emalı həyata keçiriləcəkdir. Müəssisənin sentyabr ayında istehsala başlayacağı nəzərdə tutulmuşdur.

Tərəvəzçiliyin inkişafı ilə əlaqədar rayonda son illərdə ardıcıl tədbirlər həyata keçirilir. Bu sahə əməktutumlu gəlirli sahələrdəndir. Son illərdə rayonumuzda açıq sahə tərəvəzçiliyi ilə yanaşı, örtülü torpaq-istixana tərəvəzçiliyi də inkişaf etdirilir. Hazırda rayonumuzda 61 təsərrüfatda tərəvəz və çiyələk istixanaları fəaliyyət göstərir. Açıq tərəvəzçiliyin təşkili istiqamətində işlər davam etdirilir. Kürdmaşı kəndində "İsmayıllı tərəvəzləri" MMC tərəfindən 100 hektar sahədə əkin işləri aparılır. Bunun 80 hektarını 8 çeşiddə kartof əkinləri, 20 hektarını isə hərəsi beş hektardan ibarət olmaqla soğan, kök, çuğundur, kələm əkinləri təşkil edir. Əkin sahələrində ən müasir suvarma texnologiyaları tətbiq olunacaq və cəmiyyət tərəfindən saxlama və servis xidmətləri üçün qarajlar, eləcə də uzunmüddətli tərəvəz saxlanılması üçün kamera tikiləcəkdir.

Ənənəvi sahə hesab edilən və əhalinin gəlir mənbəyi olan meyvəçiliyin inkişafı da diqqət mərkəzindədir. Qalıncaq kəndində 11 hektarda müxtəlif meyvə sortlarından ibarət intensiv meyvə, Quşencə kəndində isə 5 hektar sahədə qoz bağı salınaraq, meyvə bağlarının sahəsi 1165 hektara çatdırılmışdır. Üzümçülük sahəsində rayonumuz vaxtilə respublikada qabaqcıllar sırasında olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aqrar sahəyə göstərdiyi diqqət və qayğısı nəticəsində 2012-ci ildə "Azərbaycan Respublikasında üzümçülüyün inkişafı" Dövlət Proqramı qəbul edilmişdir. Proqramın icrasından irəli gələn vəzifələrlə bağlı rayonumuzda son illərdə 300 hektar sahədə yeni üzüm bağları salınmışdır. Bu proses davam etdirilir. Cari ilin yaz aylarında Kürdmaşı kəndində



fəaliyyət göstərən "Kənd" MMC tərəfindən 40 hektar sahədə filloksera zərərvericisinə davamlı sortlardan ibarət yeni üzüm bağı salınmışdır.

Heyvandarlıq sahəsində də yeni istehsal müəssisələrinin yaradılması, damazlıq-seleksiya tədbirlərinin təşkili və baytarlıq profilaktika tədbirlərinin aparılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Keyvəndi kəndində "Azza-aqro" şirkəti tərəfindən 1500 başlıq müasir heyvandarlıq kompleksinin tikintisi istiqamətində işlər davam etdirilir. Artıq xeyli işlər görülmüşdür. Kompleksə gətiriləcək heyvanların yemlə təmin olunması məqsədilə 400 hektar sahədə taxıl və yem bitkiləri əkilmişdir. Qalıncaq kəndində isə illik istehsal gücü 1000 ton olan hind toyuğu quşçuluq fabrikinin tikintisi aparılır. Rayonda ilk olaraq "Yaşıl market"in nəzdində mərkəzləşdirilmiş kəsim sexinin tikintisi aparılır. Bayram günlərində, həftənin şənbə və bazar günlərində "Yaşıl market"də kənd təsərrüfatı məhsullarının satış yarmarkası keçirilir.

Həyata keçirilən tədbirlər, əldə olunan uğurlu nəticələr tam əminliklə deməyə əsas verir ki, iqtisadiyyatda bolluğun bir açarı da kənd təsərrüfatındadır. Müsahibim Həsən Həsənov bizimlə söhbətinə bu fikirlərlə yekun vuraraq, bolluq açarını əldə möhkəm saxlamaq üçün bütün imkanlardan səmərəli istifadə olunduğunu da bildirdi.

**Rasim AMANOV,**
**"Respublika".**